*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 8, 2025*
*Səh. 480-484*

https://doi.org/10.62837/2025.8.480

Fil.ü.f..d. **RZAYEVA GÜLNAR MIRSƏLIM QIZI**
Gulnar.rzayeva@au.edu.az
0000-0000-0003-0584-0781
Azərbaycan Universiteti
Bakı şəhəri, Nəsimi rayonu, Ceyhun Hacıbəyli, 71

# FOLKNERIN "QƏZƏB VƏ SƏS-KÜY" ƏSƏRINDƏ AMERİKA CƏNUBUNUN SOSİAL-MƏNƏVİ BÖHRANININ ƏDƏBİ İNİKASI

## Xülasə

Bu məqalə XX əsr Amerika ədəbiyyatının görkəmli nümayəndəsi Uilyam Folknerin yaradıcılığına həsr olunub. Məqalədə onun fərqli bədii üslubu, ənənəvi mədəni-mənəvi dəyərlərə qeyri-adi baxışı və xüsusən Amerika Cənubunun ictimai-mənəvi böhranını ədəbiyyata gətirməsi vurğulanır. Müəllif qeyd edir ki, Folkner Birinci dünya müharibəsində iştirak etmədiyi üçün Ernest Heminquey və digər "itirilmiş nəsil" yazıçılarından seçilirdi. Bununla belə, o, Amerikanın mənəvi dağınıqlığını və insan talelərinin faciəsini öz əsərlərində dərin şəkildə əks etdirirdi. Bu xüsusiyyətlər daha çox onun ən məşhur əsərlərindən biri olan "Səs-küy və qəzəb" romanında öz əksini tapır.

**Açar sözlər:** Uilyam Folkner, İtirilmiş Nəsil, Amerika Cənubu, Mədəni Böhran, Səs-küy və Qəzəb, XX əsr ədəbiyyatı

Uilyam Folknerin "Səs-küy və qəzəb" romanı Amerika Cənubunun sosial və mənəvi böhranını dərinliklə əks etdirən əsərdir. Roman Kompsonlar ailəsinin taleyi üzərindən cəmiyyətin çöküşünü və ailədaxili gərginlikləri göstərir. Folknerin "şüur axını" texnikası oxucuya personajların daxili dünyasını və yaşadıqları təlatümləri birbaşa hiss etdirməyə imkan verir. "Səs-küy və qəzəb" romanı Folknerin təbirincə desək, "Sujetsiz hekayətdən - nənələrinin ölümü zamanı qardaş və bacının ağır yas mərasiminə müşahidə edib, stressə düçar olmaması üçün çayın sahilinə oynamağa göndərilməsi əhvalatından yaranmışdır". Kompazisiya baxımından roman dörd hissədən ibarətdir: üç ilkin hissələrdə Kompsonlar nəslinin üç nümayəndəsinin daxili monoloqu ("şüur axını), axırıncı dördüncü hissədə isə təhkiyəçi müəllifin "şüur axını" prinsipi əsasında qurulmuş geniş və üç əvvəlki şüur axınlarını şərh etmək məqsədi güdən daxili monoloqa çevrilmişdir"[4]. Bu hissələrdən hər biri dəqiq şəkildə kompsonlar ailəsinin həyatından konkret bir tarixə ünvanlanmışdır: 7 aprel 1928-ci il, 2 iyun 1910-cu il, 6 aprel 1928-ci il və 8 aprel 1928-ci il. Birinci hissə lal-kar idiot Bencaminin (ailədə ona "Benci" deyə müraciət edirlər) onun daxili monoloqu mahiyyət etibarı ilə heç bir konkret zamanla əlaqələndirilməmişdir. Müxtəlif zamanlarda baş verən hadisələr onun uşaqlıq səviyyəsini dəf edə bilməyən

beynində bir-birinə qarışmışdır: onun təhkiyəsində keçmişdə, indiki zamanda baş vermiş və gələcəkdə baş verə biləcək hadisələr birləşmiş, bir-birinə nüfuz etmiş, dəqiq sərhədlər pozulmuşdur. Bencamin təkcə dünyanı dərketmə qabiliyyətinin məhdudluqlarına görə deyil, həmçinin özünün son dərəcə bəsit fikirlərini ifadə edə bilmədiyinə görə normal insanların və sivilzasiyanın sərhədlərindən kənarda qalmışdır. Bencamin obrazı vasitəsi ilə U. Folkner insanlararası münasibətlərin ən üst və əyani qatını oxuculara təqdim etmişdir. Bencamin ilk növbədə öz intellektual xüsusiyyətlərinə görə cəmiyyətdən bir növ cismən təcrid olunmuşdur. Lakin bu üst, biz deyərdik ki, əyani qatın altında bütün cəmiyyəti bürümüş, ilk baxışdan insanların bir-biri ilə ünsüyyətinə təsir göstərməyən, lakin mahiyyət etibarı ilə insanları bir-birindən təcrid edən, onların arasında mənəvi-əxlaqi uçurum yaradan dəf olunmaz ekzistensial özgələşmə mövcuddur. Folkner paradoksal şəkildə faktiki olaraq oxuculara belə bir ideya aşılayır ki, bu və ya digər şəxsiyyət nə qədər böyük intellektual mənəvi potensiala malik olsa, onun cəmiyyətlə təması bir o qədər maneələrlə rastlaşar. Müəllif bu ideyanı əsərin öz strukturu ilə bir növ bərəkə ifadə etməyə cəhd göstərir: ağıldan kəm Bencamin bir çox cəhətdən məntiqdən uzaq, hadisələr və predmetlər arasında heç bir əlaqəsi nəzərə çarpmayan "şüur axını" baş verən hadisələri dərindən qavrayan və onları bütün varlığı ilə yaşayan Kventin Kompsonun daxili monoloqu ilə izah və şərh etməyə və əsaslandırmağa cəhd göstərir. Bu personajın şüur axını oxucuları 18 il bundan əvvəl baş vermiş hadisəyə ailə böhranın zirvə nöqtəsinə çatıb ailə fəlakətinə çevrilməsinə - Kventinin sui-qəsd hadisəsinə geri qayıtmağa məcbur edir. Qəhrəmanın ölüm öncəsi "şüur axını" Kompsonlar ailəsinin iflasını qaçılmaz faciəsini təcəssüm edir. Romanın üçüncü hissəsində U. Folkner Ceyson Kompsonun daxili monoloqunu oxucuya təqdim edir. Bu monoloq həm məzmunu və mənası, həm də ifadə tərzi ilə romanın iki əvvəlki şüur axınlarından fərqlənir. Əgər müəllif Bencaminin şüur axınını Kompsonlar ailəsinin bioloji iflasının, Kventinin daxili monoloqunu Komsonların ekzistensial fəlakətini - dünyadan və özü özündən özgələşməsini simvolları kimi təqdim edirsə, Ceyson Kompson mənəvi əxlaqi dəyərlərin yoxa çıxmasını təcəssüm edir: Tədqiqatçılar göstərirlər ki, əsərdə müəllif bu obrazı yumorla və hətta satirik cizgilərlə təsvir etmişdir. [2]. Onların dedikləri ilə qismən razılaşmaq olar. Birincisi, Ceyson Kompsonun ailəsinin də daxil olduğu Cənub nəsli Yokkapatof haqqında Saqanın bir çox romanlarında ən azı epizodik personaj səviyyəsində çıxış etmişdir. Bu obraz müəllif tərəfindən daim mənfi obraz kimi təqdim olunmuşdur və satirik bədii vasitələrlə təsvir olunmuşdur. İkincisi, müəllif Amerikanın Cənubunun əsaslandığı mədəni-mənəvi prinsplərin iflasını məhz bu obraz vasitəsi ilə ifadə etmişdir. Bu baxımdan xaraktercə bayağı merkantil dəyərləri rəhbər tutan Ceyson Amerika aristokartiyasının mənəvi-əxlaqi və mədəni deqradasiyanı təcəssüm edir. Əsərdə onun daxili monoloqu öz nəslinin nümayəndələrinə rişxənd hissinin ifadəsinə köklənmişdir. Lakin Ceysonun Kompsonlara münasibəti bir növ daxildən həyata

keçirilir - o öz nəslinin hüdudlarından kənara çıxa bilmir. Buna görə də, onun daxili monoloqu ilk növbədə onun özünə qarşı yönəlmişdir, onun özünün ifşasıdır. Məhz buna görə də Ceysonun öz aristokratik nəslinin dəyərlərini qəbul etməməsi kontrkultura yox, sadəcə olaraq mədəniyyətsizlikdir, mədəni vakuumdur. Romanın dördüncü hissəsində Kompsonlar evinin qaradərili sakinləri ön plana çıxırlar. Onların arasında öz yüksək mənəvi, əxlaqi keyfiyyətləri ilə dərin böhrana uğramış aristokrat Kompsonlardan fərqlənən aşpaz qadın Dilsi obrazı diqqəti cəlb edir. Qeyd etmək lazımdır ki, dördüncü hissə əsərdə cərəyan edən hadisələrə tam biganə münasibət bəsləyən, hadisələri yalnız müşayiət edib təsbit etməklə kifayətlənən təhkiyəçi-müəllif tərəfindən həyata keçirilir. Onun yüksək mənəvi-əxlaqi keyfiyyətləri bir tərəfdən faktiki olaraq bütün dəyərlərdən məhrum olmuş Kompsonların mənəvi böhranını, ikinci tərəfdən müəllifin biganə deyim tərzi kontekstində özünü büruzə verir. Dilsinin romanın strukturunda rolu ingilis tənqidçisi U.Alles tərəfindən antik yunan faciələrindəki Xorun rolu ilə müqayisə olunur. Bu rol Dilsiyə yunan faciəsində Xorun ifadə etdiyi üç funksiyanı dialektik vəhdətdə ifadə etməyə imkan verir: aşpaz qadın bir tərəfdən hadisələrin meydana gəlmə səbəbini və cərəyan etmə xüsusiyyətlərini, ikinci tərəfdən onlara verdiyi şərhlərlə diqqəti cəlb edir. Bu iki müxtəlif müəyyən mənada bir-birinə zidd olan funksiyaları Dilsi özünün yüksək mənəvi dəyərləri hesabına çulğalaşdırmağa nail olur: Dilsi bir tərəfdən intiutiv şəkildə Kompsonların düçar olduqları fəlakətlərin ilkin mənəvi-əxlaqi səbəblərini hiss edir, digər tərəfdən uzun illər boyu qulluq etdiyi bu ailənin halına yanır. O bir tərəfdən yunan Xoru kimi ictimai fikrin daşıyıcısıdır, lakin hadisələrə təhkiyəçi-müəllifdən fərqli olaraq biganə münasibət bəsləyə bilmədiyinə görə hadisələr tendensiyasına münasibət bəsləməyə çalışır. Bu iki cəhətin ictimai rəyin və fərdi münasibətin dialektik vəhdəti Dilsiyə Kompsonlar ailəsinin faciəsini bütün dərinliyi ilə görmək və bu ailənin üzvülərinin halına acımaq imkanı verir. Romanla bağlı verdiyi intervülərdən birində Folkner əsərin birinci hissəsinin təhkiyəçisi qismində məhz idiot Bencini seçdiyini belə izah etmişdir. Yazıçının fikrincə məhz bu obraz romanın ideya məzmununu və ideologiyasını ifadə etmək üçün bir sıra müstəsna xüsusiyyətlərə malikdir. Hər şeydən əvvəl Benci sənətkarı "uşağın özünə qapanmış kor-təbii günahsızlığı cəlb edirdi": o nələrin baş verdiyini bilir, lakin səbəbləri müəyyənləşdirmək iqtidarında deyil. [3]. Əsərdə təhkiyyəçilərin bir-birini əvəz etməsi simvolik şəkildə üç dünyaduyumu və dünyadərk konsepsiyasına əsaslanır. Bunlardan birincisi Bencinin uşaq qeyri-rassional, konkret hissi dünyanıdərkidir. O, ətrafında cərəyan edənləri hadisələr zənciri kimi təqdim edir. Lakin bu hadisələr arasında heç bir səbəb-nəticə əlaqələri mövcud deyil. Benci eyni zamanda hadisələri dərk edə bilmədiyinə görə onları dəyərləndirmək, onlara şəxsi münasibət ifadə etmək iqtidarında deyil. Səbəb-nəticə əlaqələrinin olmaması Benciyə hadisələri zaman baxımından da ardıcıl düzməyə imkan vermir. Maksimum emosional gərginlik durumunda yaşayan Kventin Kompsonu daxilən ziddiyyətli düşüncə tərzi ona

keçmişlə indiki zaman arasında simvolik körpü, kövrək bağlar sistemi yaratmağa imkan verir. Romanın personajları arasında yaşına uyğun olmayan yaşlı məntiqindən çıxış edən Ceyson real dünyanı, real səbəb-nəticə əlaqələrini adekvat şəkildə dəyərləndirə bilir. Lakin dünyaya bu ayıq münasibət bir ölçülüdür, hər hansı bir mənəvi-əxlaqi komponentdən məhrumdur. Bu baxımdan Folkner mövcud mənəvi-mədəni dəyərlərə üç münasibət nümayiş etdirir: İdiot Benci bu dəyərləri təsbit edir, lakin bunları təsbit etmək iqtidarında deyil; yüksək emossional gərginlik şəraitində yaşayan Kventinin durumu ənənəvi mədəni-mənəvi dəyərlərin böhrana uğramasını səciyyələndirir, bütün dəyərlərə istehzalı münasibət bəsləyən, faktiki olaraq onları dəyərsizləşdirən Ceyson isə onların tam iflasa uğramasından xəbər verir. Bu üç müxtəlif nəzər nöqtəsinin birtərəfliliyi müəllif şəhrinin obyektivizmində öz həllini tapır. Lakin onu da qeyd etmək lazımdır ki, İkinci dünya müharibəsindən sonra Amerika bir neçə onilliklər ərzində geniş vüsət tapmış bitniklərin və hippilərin hərəkata müxtəlif şəkildə "Səs-küy və qəzəb" romanında qaldırılmış problemlərə öz münasibətini nümayiş etdirdi. Hər şeydən əvvəl atalarının yaşam prinsiplərində, qətiyyətlə və radikal şəkildə imtina edən gənclər faktiki olaraq Kventin obrazında öz əksin tapmış, böhran durumunu təkrar etdilər: gənclər kütləvi şəkildə cəmiyyətin qanunlarından, yaşam tərzindən, mənəvi-mədəni dəyərlərindən, əxlaq prinsiplərindən imtina edir. [1]. Bitniklərin və hippilərin mövcud ictimai və dövlət təsisatlarının fəaliyyətində iştirak etməkdən vaz keçməkdən Kventinin cismani intiharının bir növ kütləvi şəkildə təkrarı, simvolik sui-qəsd idi. Bu gənclərin narkotiklərə aludə olmaqları, gerçəkliyin dərd-sərini, ağrılarını unutmaq naminə ümumiyyətlə dünyadan, gerçəklikdən tamamilə təcrid olunmaq meylləri faktiki olaraq idiot Bencinin gününə düşmək cəhdlərindən xəbər verdi.

Bu baxımdan Kompsonlar ailəsinin faciəsini – Amerikanın mənəvi-mədəni böhranın müəllif obyektivizmi vasitəsilə həll etmək cəhdi XX əsrin sonu XIX əsrin əvvəllərində Amerika Birləşmiş Ştatlarında Dövlət və İctimai Qurumların həqiqətən İkinci dünya müharibəsindən sonra düşdükləri böhran durumunu obyektiv və ayıq şəkildə dəyərləndirə bilmələrindən və düzgün nəticə çıxara bilmələrindən xəbər verir.

**Rzayeva G.**

## THE LITERARY REFLECTION OF THE SOCIO-MORAL CRISIS OF THE AMERICAN SOUTHIN FAULKNER'S NOVEL "THE SOUND AND THE FURY"

The article focuses on William Faulkner, one of the most prominent American writers of the 20th century. It highlights his unconventional approach to cultural and moral values, as well as his distinctive difference from the "Lost Generation" writers

such as Ernest Hemingway, since he did not participate in World War I. Nevertheless, Faulkner deeply reflected the moral disintegration of American society, especially the cultural and spiritual crisis of the South. These themes found their most powerful expression in his renowned novel “The Sound and the Fury” (1929).
**Keywords:** William Faulkner, Lost Generation, American South, Cultural Crisis, The Sound and the Fury, 20th-century Literature

**Рзаева Г.**

**ЛИТЕРАТУРНОЕ ОТРАЖЕНИЕ СОЦИАЛЬНО-НРАВСТВЕННОГО КРИЗИСА АМЕРИКАНСКОГО ЮГА В РОМАНЕ ФОЛКНЕРА «ШУМ И ЯРОСТЬ»**

**Резюме**

Статья посвящена Уильяму Фолкнеру — одному из выдающихся писателей XX века. В ней подчеркивается его необычный подход к культурным и нравственным ценностям, а также отличие от писателей «потерянного поколения», таких как Эрнест Хемингуэй, поскольку Фолкнер не участвовал в Первой мировой войне. Тем не менее он глубоко отразил духовный кризис американского общества, особенно Юга. Наиболее яркое выражение эти темы получили в его знаменитом романе «Шум и ярость» (1929).
**Ключевые слова:** Уильям Фолкнер, Потерянное поколение, Американский Юг, Культурный кризис, Шум и ярость, Литература XX века

1. Bleikasten, A. The Ink of Melancholy: Faulkner’s Novels from The Sound and the Fury to Light in August / A. Bleikasten. – Indiana University Press, 1990. – 380 p
2. John V. Hagopian (red.) – The Sound and the Fury: Critical Insights (2014)
3. Jonathan Culler – Structuralist Poetics: Structuralism, Linguistics and the Study of Literature (1975)
4. Stephen Hahn və Robert Hamblin – Teaching Faulkner: Approaches and Methods (2001)

**Rəyçi: f.e.d., prof. Qorxmaz Quliyev**